10.61764/lasr.1.2023.226-236

**UOT 33**

**Şahin Məmmədov**
*Azərbaycan Dövlət İqtisad Universiteti, magistrant*
*mammadov5335@gmail.com*
***Elmi rəhbər:* Söhrab İsayev**
*Azərbaycan Dövlət İqtisad Universiteti, dos.*

# TƏBİİ RESURSLARIN QEYRİ-QANUNİ İSTİSMARI NƏTİCƏSİNDƏ DƏYMİŞ ZƏRƏRİN ÖDƏNİLMƏSİ MƏSƏLƏLƏRİ
## (Ermənistanın Azərbaycan Respublikasına hərbi təcavüzü timsalında)

*Şanlı Azərbaycan ordusunun qələbəsi ilə bitən İkinci Qarabağ müharibəsi işğal edilmiş ərazilərin azad edilməsi ilə nəticələnməklə yanaşı Erməni işğalçılarının həyata keçirdiyi dağıntıların üzə çıxmasına zəmin yaratdı. Mənfur düşmənin həyata keçirdiyi dağıntıların üzə çıxması dedikdə həmin ərazilərdə ölkə infrastrukturuna, təbiətinə, sərvətlərinə vurulan ziyanın müəyyənləşdirilməsi və öyrənilməsi məsələləri nəzərdə tutulur. Məqalədə Qarabağ iqtisadiyyatına dəymiş zərərin bir hissəsindən bəhs edilir. Məqalədə təbii resurslar haqqında ilkin nəzəri biliklər verilməklə təbii resurslar barədə Azərbaycan qanunvericiliyində toxunulan məsələlər, beynəlxalq təcrübədə bu məsələlərə yanaşma, zərərin qiymətləndirilməsi ilə bağlı cari vəziyyət və hüquqi müstəvidə atıla biləcək addımlardan bəhs olunur.*

***Məqsəd*** **–** Qarabağda təbii resurslarin qeyri-qanuni istismarı nəticəsində dəymiş zərər və onun beynəlxalq hüquqi müstəvidə dəyərləndirilərək ödənilməsi məsələsi təşkil edir.

***Metodologiya*** – məqalədə iqtisadi təhlil metodlarından, iqtisadi analiz, müqayisəli analiz, sintez metodlarından istifadə edilmişdir.

***Tədqiqatın nəticələri*** **–** işğaldan azad olunmuş ərazilərda aparılan qanunsuz istismarın nəticəsi olaraq qeyd etmək olar ki, hələ az müddət keçməsinə baxmayaraq həm yerli mütəxəssislər həm də əcnəbi ekspert qrupları bu məsələnin dərindən təhlil edilməsi üçün öz səylərini davam etdirir. Görülən işlər daim hökümətin diqqətindədir və mövzu aktuallığını qoruyub saxlayır.

***Açar sözlər:*** İkinci Qarabağ müharibəsi, erməni işğalçıları, təbii resurslar, zərər, prioritet

### Giriş

İlham Əliyev 25 sentyabr 2020-ci ildə Ermənistan Respublikasına bəyənat vermişdir. Prezident Əliyev çıxışında "Ermənistanın işğal olunmuş ərazilərdə qanunsuz olaraq təbii ehtiyatları istismar etməsi və süni ekoloji böhran yaratmaq məqsədilə su ehtiyatlarından istifadə etməsini də vurğulayıb":

"Azərbaycanın işğal altında olan ərazilərində qızıl və digər qiymətli metal və minerallar hasil edən Ermənistan onları beynəlxalq bazarlara ixrac edir. Bu, qanunsuz biznes fəaliyyəti və çirkli pulların yuyulması sxemidir. Azərbaycanın təbii ehtiyatlarını qanunsuz istismar edən beynəlxalq şirkətlər qeyri-qanuni fəaliyyətlərini dərhal dayandırmadıqları halda onlar hüquqi məsuliyyətlə üzləşəcəklər".

20 aprel 2021-ci il tarixində Azərbaycan Televiziyasına müsahibəsində dövlət başçısı yenidən bu mövzuya toxunmuşdur.

Prezident İlham Əliyev vurulmuş ziyanın hesablanması prosesinin davam etdiyini, xarici mütəxəssislərin də bu işə cəlb olunduğunu xatırladıb.

**Əsas hissə**

Təbii resurslar təbiətdən alınan və müəyyən dəyişikliklərlə istifadə olunan ehtiyatlardır. Yer üzündə ona günəş işığı, atmosfer, su, torpaq, bütün minerallar, bütün bitki örtüyü və vəhşi təbiət daxildir. Təbii resurslara ümumilikdə baxsaq, təbiətdən əldə olunaraq insanların tələbatını ödəmək üçün istifadə olunan hər şey başa düşülür. Buna həm maddi həm də mənəvi tələbatlar aid edilir. Mənəvi tələbat kimi, təbiətin gözəlliyinin insana ötürdüyü xoş hissləri misal göstərmək olar. Lakin onun başlıca məqsədi - insanın maddi tələbatını ödəməkdir, yəni maddi nemətlər yaratmaqdır.

Təbii resurs şirin su, hava, eləcə də balıq kimi hər hansı canlı orqanizm şəklində ayrı bir varlıq kimi mövcud ola bilər və ya o, hasilat sənayesi tərəfindən iqtisadi cəhətdən faydalı formaya çevrilə bilər, məsələn, resursun əldə edilməsi üçün müəyyən faydalı qazıntılar növbəti mərhələdə emal edilməlidir. metal filizləri, nadir torpaq elementləri, neft, ağac və enerjinin əksər növləri. Bəzi ehtiyatlar bərpa olunan resurslardır, bu o deməkdir ki, onlar müəyyən sürətlə istifadə oluna bilər və təbii proseslər onları bərpa edəcək, halbuki bir çox hasilat sənayesi xammalları yalnız bir dəfə çıxarıla bilən bərpa olunmayan resurslar kimi təsnif edilir.

**İşğaldan azad olunmuş ərazilərin təbii resurs potensialı qısa icmalı**

Azərbaycan təbii resurs potensialına görə dünyanın ən zəngin regionlarından sayılır. Ölkənin təbii resursları nəinki tam öyrənilməyib, həm də ekoloji və sosial-iqtisadi cəhətdən dərk edilməyib, qiymətləndirilməyib. Vaxtında təbii resurs potensialın coğrafi ekspertizası aparılmadığı səbəbindəndir ki, sosial-iqtisadi əhəmiyyət kəsb edən resursların bir hissəsi deqradasiyaya məruz qalmışdır.

Qarabağ zonası isə xüsusilə bu cəhətə görə mənfi mənada "öndə gedir". Bunun bir neçə obyektiv səbəbi var. Birincisi üzun illər SSRİ-nin tərkib hissəsi kimi ümumi olaraq Azərbaycan (istisna: Bakı, səbəb: neftinə görə) diqqətdən kənar qaldığına görə, dəqiq hesablamalar aparılmamışdır. İkinci səbəb isə odur ki, SSRİ-nin pəncəsindən yeni qurtulan kimi Qarabağın mənfur erməni işğalına məruz qalmasıdır. 30 ilə yaxın işğal dövründə də nəinki ədalətli qiymətlər aparılmamış, hətta mövcud qiymətli təbii ehtiyyatlarımız qeyri-qanuni olaraq istismar edilmişdir.

Regionun faydalı qazıntı, xammal potensialına baxsaq görərik ki, Qarabağ bu cəhətdən kifayət qədər zəngin bir regiondur. İşğal edilmiş ərazilərdə 155 müxtəlif növ faydalı qazıntı yataqları, o cümlədən: 5 qızıl, 6 civə, 2 mis, 1 qurğuşun və sink, 19 üzlük daşı, 10 mişar daşı, 4 sement xammalı, 13 müxtəlif növ tikinti daşları, 1 soda istehsalı üçün xammal, 21 pemza və vulkan külü, 10 gil, 9 qum-çınqıl, 5 tikinti qumu, 9 gips, anhidrid və gəc, 1 perlit, 1 obsidian, 3 vermikulit, 14 əlvan və bəzək daşları (əqiq, yəşəm, oniks, cad, pefritoid və s. ) yataqları yerləşir (şəkil 1).

Yuxarıda sadalanan növ faydalı qazıntılar Qızılbulaq, Mehmana, Dəmirli, Canyataq-gülyataq, Ağdərə, Şorbulaq, Şuşa, Şirlan, Turşsu, Xocalı, Zərinbax, Ağçay, Xankəndi, Ediş, Xocavənd, Söyüdlü, Ağduzdağ, Tutxun, Ağyataq, Levçay, Kilsəli, Keşdək, Keçəldağ, Çəlli, Yuxarı İstisu, Aşağı İstusu, Mozçay, Qoturlu, Çilkəz, Narzanlı, Əhmədli, Hoçaz, Laçın, Novruzlu, Yuxarı Əkərəçay, Quşçu, Minkənd, Hacılı, Xanlıq, Qubadlı, Vejnəli, Bartaz, Oxçuçay, Zəngilan, Şərifan, Tuluz, Qaracalı, Soltanlı, Çaxmaxçay, Göyərçin-Veysəlli, Minbaşılı, Ağtəpə, Cəfərabad, Şahverdilər, Çaxmaxqaya, Dövlətyarlı, Diləgərdi, Kürdmahmudlu, Quruçay, Şahbulaq, Gülablı, Çobandağ, Boyəhmədli,

Şahbulaq, Ağdam, Qarqarçay, Xaçınçay və s. yataqlarda aşkar edilib. Sözügedən yataqlarda sənaye ehtiyatları təsdiq edilmiş 132.6 ton qızıl, 37.3 min ton qurğuşun, 189 milyon m3 mişar daşı, 1 milyon 526 min ton gəc, 18 milyon 432 min m3 üzlük daşı, 23 milyon 243 min m3 gil, 57 milyon 965 min ton tikinti daşı, 96 milyon 987 min ton qum-çınqıl, 1898.4 ton civə, 4 milyon 473 min m3 perlit, 2 milyon 144 min m3 pemza, 129 milyon 833 min m3 soda istehsalı üçün əhəngdaşı, 147 milyon 108 min ton sement xammalı və s. iqtisadiyyatın inkişafında vacib əhəmiyyət daşıyan faydalı qazıntılar aşkar edilib. Regionda nadir və qiymətli faydalı qazıntı yataqları yayılıb. Əhəmiyyətli mis-sink filizlərinin ehtiyatları Kiçik Qafqazın şərqində yerləşən Mehmana yataqlarında cəmlənmişdir. Burada istismara hazır olan filiz ehtiyatları vaxtilə öyrənilmişdir. Sənaye əhəmiyyəti olan civə ehtiyatları Kəlbəcər rayonundakı Şorbulaq və Ağyataqda yerləşir.




**Şəkil 1. İşğaldan azad edilmiş bölgələrimizin təbii ehtiyyatları**
***Mənbə:*** **[10, s.31]**

İşğal olunmuş ərazilər Azərbaycanın sənayesi və tikintisində böyük əhəmiyyəti olan müxtəlif növ tikinti materialları ilə çox zəngindir. Belə materialların böyük ehtiyatları Ağdam rayonu ərazisində yerləşən Çobandağ (əhəngin ehtiyatları 140 mln. ton və gillər 20 mln. ton ), Şahbulaq (25 mln. ton gil), Boyəhmədli (45 mln. ton gil) və digər yataqlardadır. Həmçinin, iri tikinti daş yataqları Xankəndində, mərmər isə Harovda yerləşir **[11].**

10.61764/lasr.1.2023.226-236

**Azərbaycan Respublikasında təbii ehtiyyatlardan istifadənin normativ hüquqi təminatı**

Azərbaycan Respublikasında təbbi ehtiyyatlarla bağlı qanunvericilik sisteminin əsasını konstitusiya, qanun, Prezidentin fərmanları və bu sahədə imzalanan sazişlər təşkil edir. Bunlar:

- Azərbaycan Respublikasının Konstitusiyası;
- "Təbiəti mühafizə və təbiətdən istifadə haqqında" Azərbaycan Respublikasının qanunu;
- "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu;
- "Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikasının Qanunu;
- "Hasilat sənayesində şəffaflığın və hesabatlılığın artırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı;
- "Gədəbəy, Qoşa, Ordubad qrupu (Piyazbaşı, Ağyurd, Şəkərdərə, Kələki), Söyüdlü, Qızılbulaq və Vejnəli perspektiv qızıl filiz yataqlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Azərbaycan Respublikasının «Azərqızıl» Dövlət Şirkəti ilə R.V. INVESTMENT GROUP SERVICES, LLC USA arasında saziş.

Azərbaycan Respublikasının qanunvericilik sisteminin ən yüksək hüquqi qüvvəyə malik olan normativ hüquqi aktında - Konstitusiyada 2 maddədə təbii ehtiyyatlarla bağlı məsələlərə toxunulub : 14-cü maddədə təbii ehtiyatların fiziki və ya hüquqi şəxslərin hüquqlarına və mənafelərinə xələl gətirməmək şərti ilə Azərbaycan Respublikasına mənsubluğu, 39-cu maddədə isə heç kəsin təbii ehtiyatlara qanunla müəyyən edilmiş normadan artıq təhlükə törədə və ya zərər vura bilməyəcəyi vurğulanır [3. s.3-6].

Azərbaycan Respublikasında təbii ehtiyyatlardan istifadənin normativ hüquqi təminatının əsasını "Təbiəti mühafizə və təbiətdən istifadə haqqında" Azərbaycan Respublikasının qanunu təşkil edir. Adıçəkilən Qanunun 2-ci maddəsinə əsassən, Azərbaycan Respublikasının ərazisində və Azərbaycan Respublikasının Xəzər dənizindəki iqtisadi zonasının sərhədləri daxilində olan bütün təbii resurslar Azərbaycan Respublikasının müstəsna mülkiyyəti hesab olunur. Bu qanunun başlıca məqsədi cəmiyyət ilə təbiətin qarşılıqlı əlaqəsini təmin edərək Azərbaycanın əzəli təbii xüsusiyyətlərini, həmçinin canlı orqanizmləri və onların yaşayış mühitini qoruyub saxlamaqdır [4. s.1].

Bu normativ hüquqi akt ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan istifadə sahəsində yaranan münasibətləri nizamlayır. Ümumiyyətlə, ehtiyatlardan istifadə hüququnun əsasını əvvəlcədən müəyyənləşdirilmiş qaydada rəsmiləşdirilməsi həyata keçirilən, sanitariyaya nəzarət orqanlarının qarşılıqlı razılığı ilə dövlət təbiəti mühafizə orqanları tərəfindən verilən müvafiq icazə təşkil edir.

Təbii resursların təbiətdən işlənib hasil olunması müəyyən normalar daxilində həyata keçirilməlidir ki, aparılan prosesin təbiətə potensial mənfi təsiri minimuma endirilsin. Bu sahədə həm dövlət həm də ictimai nəzarət qarşılıqlı fəaliyyət göstərməlidir ki, istənilən nəticə alınsın. Ümumiyyətlə bu qanunun müssəalarına baxsaq görərik ki, qanunda dövlət nəzarətinə nə qədər yer verilsə də vətəndaş mövqeyi təsir dairəsindən kənarda qalmır. Bu sahədə dövlət idarə nəzarəti vasitəsi ilə gedişata ümumi nəzarəti həyata keçirir. İdarə nəzarətinin nə olduğuna baxaq:

Təbiəti mühafizə məqsədi ilə və təbiətdən istifadə sahəsində xüsusi bir nəzarət forması həyata keçirilir ki, bu da idarə nəzarəti adlanır. İdarə nəzarətini bir qayda olaraq baş idarələrin və nazirliklərin ekoloji və digər xidmətləri reallaşdırır. İdarə nəzarətinin vəzifəsi təbiətin mühafizəsi, təbii ehtiyatlardan səmərəli istifadə, onların bərpası, artırılması, ətraf təbii mühitin sağlamlaşdırılması üçün idarə planları və tədbirlərin yerinə

yetirilməsini yoxlamaq, təbii ehtiyatların işlədilməsi normativlərinə və müvafiq təbiəti mühafizə qanunvericiliyinin normalarına əməl edilməsini yoxlamaqdır.

Ekoloji xidmətlərinin və yaxud idarə ekoloji nəzarəti hüquqlarına sahib olan xidmətlərin təşkili və fəaliyyət istiqaməti nazirlik və baş idarələrin Azərbaycan Respublikası Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi ilə razılaşdırmaqla qanunvericilik əsasında təsdiqlənən əsasnamələrlə nizamlanır.

"Ətraf mühitin mühafizəsi haqqında" qanunda təbii resurslarla bağlı əsas məsələ kimi qarşıya qoyulan məsələ təbii ehtiyatlardan səmərəli istifadə və onların bərpası, bu sahədə qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi üçün təbiətlə cəmiyyətin qarşılıqlı əlaqəsidir.(5)

Bu qanunda əsas məqamlardan biri olan təbii resursların dövlət kadastrının aparılmasıdır ki, bu da öz növbəsində təbii ehtiyyatların qeydiyyatı və vahid sistemdə toplanmasını təmin edir. Bu sistemin imkanları ilə iqtisadiyyatın mövcud tələbatını ödəmək, həmçinin təbii ehtiyatların kəmiyyət və keyfiyyət indikatorlarını müəyyən etmək asanlaşır. Müəyyən qiymətləndirmələrdən və vahid qeydiyyat sisteminə alındıqdan sonra zaman-zaman dəyişən vəziyyəti öyrənmək üçün monitorinqlər aparılır. Burda əsas məqam təbii resursların cari vəziyyəti və onlara antropogen təsiri müəyyənləşdirməkdir.

"Qiymətli metallar və qiymətli daşlar haqqında" qanunda məqaləmə aid olan hissə adından da göründüyü kimi əlvan faydalı qazıntılarla bağlıdır. Qanunun 17-ci maddəsində Qiymətli metallarla və qiymətli daşlarla əlaqəli fəaliyyətə dövlət nəzarətinin onların əldə edildiyi təbii ehtiyyatlardan səmərəli istifadədən ibarət olması öz əksini tapır [6. s.5].

Cənab Prezidentin "Hasilat sənayesində şəffaflığın və hesabatlılığın artırılması ilə bağlı əlavə tədbirlər haqqında" imzaladığı fərman bu sahədə əhalinin iqtisadi-sosial həyatına təsir edə biləcək normativ hüquqi aktdır. Ölkə başçısının imzaladığı fərmanda qeyd olunduğu kimi təbii ehtiyatlardan əldə olunan vəsaitdən qənaətli şəkildə istifadə yoxsulluğun minimuma endirilməsinə və dayanıqlı iqtisadi inkişafa rəvac verən mühüm vasitədir.

Azərbaycan Respublikasında təbii ehtiyyatlardan istifadənin normativ hüquqi bazasını təşkil edən sonuncu akt isə Azərbaycan Respublikasının «Azərqızıl» Dövlət Şirkəti ilə R.V. İnvestment Group Services arasında 1997-ci il avqustun 20-də imzalanan sazişdir. Sazişin mətni konfidensional olduğundan dərc edilməmişdir. Sazişdə toxunulan əsas məqamlar tərəflərin pay bölgüsü, hüquqi məsuliyyətləri və s. olmuşdur.

**Təbii resurslarin qeyri-qanuni istismarı nəticəsində dəymiş zərərin hesablanması metodikası və bu sahədə görülmüş tədbirlər**

Qarabağda ermənilər tərfindən törədilən fəlakətin miqyası olduqca böyükdür. Dəymiş zərərin hesablanması və beynəlxalq hüquqi arenada qiymətləndirilməsi zərurəti 2-ci Qarabağ müharibəsində qazandığımız parlaq qələbədən sonra daha böyük əhəmiyyət kəsb etməyə başladı. Çünki, 30 ilə yaxın müddətdə düşmən tapdağı altında qalan ərazilərdə hesablama işləri aparmaq olduqca çətin bir proses idi. Buna səbəb isə müharibədən əvvəl də dəqiq qiymətləndirmə işlərinin aparılmaması və müharibənin özünün yaratdığı çətinliklər idi.

Hal-hazırda isə həmin arzilərin əlçatan olması, texnologiyanın imkanlarının genişlənməsi bizə imkan verir ki, daha dəqiq və təfsilatlı monitorinqlər aparaq və yekun nəticəni dünya ictimaiyyətinə təqdim edək.

Ümumilikdə baxsaq təcavüzə görə yaranan maddi məsuliyyət beynəlxalq hüquqazidd davranış kimi, vurulan maddi ziyana görə öhdəliyin yaranması kimi başa düşülür. Bu özü də iki formada təzahür edir: restitusiya formasında – bu o deməkdir ki, qanunsuz əməlin

törədildiyi vaxta qədər olan mövcud vəziyyət bərpa olunmalıdır və ya reparasiya formasında – bu formada isə təcavüzkar tərəfin vurduğu zərər pul və ya başqa maddi formada ödənilə bilər. Reparasiya formasına praktikada daha çox rastlanır və ölkəmizin də dəymiş zərərə görə atdığı addımlar bu modelə əsaslanır

Azərbaycan Respublikası görülən tədbirlərin effektiv və dəqiqliyini artırmaq məqsədi ilə beynəlxalq ekspertləri də hesablama prosesinə cəlb etmişdir. Bu yolla biz Ermənistanın meşə, torpaq, və faydalı qazıntılara, həmçinin əmlaka və mədəni irs nümunələrinə vurduğu ziyanı dəqiq hesablama prosesindədir.

Möhtərəm Prezident çıxışlarında və müsahibələrində humanist mövqe sərgiləyərək dəfələrlə vurğulamışdır ki, dəyən zərərin həcmi tam hesablanıb qurtardıqdan sonra Ermənistan tərəfi zərəri ödəyərsə, beynəlxalq məhkəmələrə müraciət edilməyəcək. Lakin təəssüflər olsun ki, qarşı tərəfin sərgilədiyi siyasət humanizm prinsiplərindən çox uzaqda qalır. Bu halda ən optimal variant məsələnin beynəxalq müstəvidə öz həllinə qovuşmasıdır.

Dəymiş zərərin hesablanması məsəsləsinə gəldikdə isə, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru, iqtisad elmləri doktoru Vüsal Qasımlı AZƏRTAC informasiya agentliyinə verdiyi müsahibədə zərərin hesablanmasında mümkün üsulları vurğulamışdır:

Konfliktlərin vurduğu zərərlərin ölçülməsi istiqamətində iki üsuldan istifadə oluna bilər. Birinci üsul birbaşa zərərlərin qiymətləndirilməsidir ki, bu zaman birbaşa olaraq məhv edilmiş infrastruktura dəymiş zərərlərin dəyəri ilə qiymətləndirilməsi həyata keçirilir. İkincisi isə dolayı zərərdir ki, bu halda infrastrukturun məhv edilməsi nəticəsində itirilmiş imkanlar, iqtisadi səmərə və əlavə faydaların qiymətləndirilməsi aparılması mümkündür.

Baxsaq görərik ki, müxtəlif münaqişələr zamanı istifadə edilən əsas metodlardan biri də təsirlərin qiymətləndirilməsi metodu olmuşdur. Misal olaraq, 2019-cu ildə Yəməndə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı dəymiş təsirlərin qiymətləndirilməsini aparmışdır. Müharibənin səbəb olduğu zərərlərin qiymətləndirilməsi və yeni infrastruktur sisteminin yaradılması üzrə ehtiyacların müəyyən olunması üçün digər qiymətləndirmə isə 2018-ci ildə İraqda Dünya Bankı tərəfindən aparılmışdır. İŞİD terror təşkilatı tərəfindən dağıdılmış infrastrukturun sosial, istehsal, kommunal təsərrüfatı, dağıdılmış evlər, turizm obyektləri, nəqliyyat, dövlət obyektləri, ekologiya və sair sahələr üzrə qiymətləndirilməsi aparılıb.

2020-ci il sentyabrından başlayaraq Ermənistanın Respublikasının Azərbaycan ərazisində dövlət əmlakına, mülki əhaliyə, həmçinin, infrastruktur obyektlərinə və sahibkarlıq fəaliyyəti ilə məşğul olan subyektlərə dəymiş ziyanın müəyyən olunmasını və aradan qaldırılmasını təmin etmək üçün Dövlət Komissiyası yaradılıb.

Qarabağa dəyən zərəri qiymətləndirmək üçün hər iki üsul məqbul hesab edilir, çünki lazım gəldikdə birbaşa zərərin öyrənilməsi, lazım gəldikdə isə dolayı zərərin öyrənilməsi effektivdir. Məsələn, təbii ehtiyyatlara vurulan zərərlər ilkin olaraq birbaşa zərər kimi qiymətləndirilir. Sonrakı mərhələdə isə, məsələyə itirilmiş iqtisadi səmərə kimi baxılır, yəni dolayı yolla zərər hesablanır.

Ümumən dəymiş zərərin ödənilməsində isə beynəlxaq təcrübənin tətbiq olunması hazırki vəziyyət üçün məqbul hesab edilə bilər. Əvvəl də qeyd etdiyim kimi, reparasiya termini təcavüzkar dövlətin təcavüzə məruz qalmış dövlətə dəymiş zərəri pul və ya hər hansı digər maddi formada ödəməsini nəzərdə tutan maddi-hüquqi məsuliyyəti ifadə edir. Tarixdə işğalçı dövlətlərə qarşı bu cür yanaşılma praktikası artıq mövcuddur.

Reparasiya ilk dəfə Birinci Dünya müharibəsində dəymiş zərərin kompensasiyası məqsədi ilə təyin olunmuşdur. 1919-cu ildə Versal Sülh Müqaviləsi bağlanıb və Almaniya-

nın müttəfiqləri ilə birlikdə öhdəliyini qeyd edən və təxminən 270 milyard qızıl marka, 100 min ton qızıl dəyərində təzminat məbləği təyin olunub.

Almaniya və müttəfiqlərinin üzərinə İkinci Dünya müharibəsində də reparasiya öhdəliyi qoyulmuşdu.1945-ci ildə Yalta Konfransında qəbul olunan qərara görə Almaniyadan SSRİ-yə təxminən 400 min dəmir yolu vaqonu yük, 2885 fabrik avadanlıqları, 96 elektrik stansiyası avadanlıqları, 340 min maşın, 200 min elektrik mühərriki, 1 milyon 335 min baş heyvan, 2,3 milyon ton taxıl, 1 milyon ton kartof və tərəvəz, yarım milyon ton yağ və şəkər, 20 milyon litr spirt, 16 ton tütün göndərilib. Əlavə olaraq, Humboldt Universitetinin astronomik rəsədxanasından teleskoplar, Berlin metro vaqonları və səyahət gəmiləri və digər texnoloji avadanlıqlar SSRİ-yə ödənildi. Almaniya tərəfindən digər ölkələrə də reparasiya ödənişi mərhələlərlə həyata keçirilib [7, s.11-27].

Digər bir nümunə isə 20-ci əsrin ortalarında Yaponiya və İndoneziya arasında yaşanan münaqişə nəticəsində təyin olunan reparasiyadır. 1958-ci ildə imzalanan sülh müqaviləsi və ona əlavə edilən təzminat müqaviləsinə əsasən Yaponiya 12 il ərzində İndoneziyaya 223 milyon dollar ödəməli idi.

Bundan başqa, BMT tərəfindən 1990-1991-ci illərdə Küveytə qarşı qanunsuz işğal nəticəsində dəyən ziyana və itkilərə görə İraqa təzminat ödəmək öhdəliyi irəli sürülüb. Təzminatın ödənilməsini təmin etmək üçün isə BMT-nin Təzminat Komissiyası yaradılmışdır.

BMT-nin Təzminat Komissiyası (UNCC) Təhlükəsizlik Şurasının 687 saylı qətnaməsinə əsasən, 1991-ci ildə, İraqın 1990–1991-ci illərdə Küveytə qanunsuz işğalı nəticəsində təzminat ödənməsini təmin etmək məqsədilə qurulub. Komissiya tərəfindən təqxmini 2,69 milyon iddiaya qarşılıq bu günə qədər 352.5 milyard dollara yaxın təzminatın ödənilməsi təmin olunub. Komissiya altı tələb kateqoriyası üzrə təzminat ödənilməsini həyata keçirir. Bu kateqoriyalardan F kateqoriyası dövlətlər və ya təkilatlar tərəfindən edilən tələblərdir ki, Azərbaycan respublikası bu kateqoriyanı rəhbər tutub komissiyaya müraciət edə bilər.

Vüsal Qasımlı həmçinin ekosidin dünyaya çatdırılmasında böyükmiqyaslı işlər görür. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) icraçı direktoru Azərbaycan ərazilərində “Qızılbulaq” qızıl və “Dəmirli” mis-molibden yataqlarının qanunsuz istismarına etiraz olaraq dünyanın ətraf mühit siyasəti sahəsində olan aparıcı beyin mərkəzlərinə müraciət edib. Müraciətdə qeyd olunur ki, Azərbaycan ekoloqları Rusiya sülhməramlılarının müvəqqəti fəaliyyət göstərdiyi Azərbaycan ərazilərində Qızılbulaq qızıl və Dəmirli mis-molibden yataqlarının qanunsuz istismarına etiraz edirlər. Bu səbəbdən azərbaycanlı ekoaktivistlər “Ekoloji terrora son!”, “Öz ərazilərimizdə monitorinqin qarşısını alma!” şüarları ilə planetin həyat qabiliyyətini təhdid edən ekosid və qeyri-qanuni istismarın qarşısını almağa çağırırlar. Eyni zamanda, Azərbaycan ərazilərində yerləşən faydalı qazıntı yataqlarında azərbaycanlı mütəxəssislərin monitorinq və qiymətləndirmə aparmasına şərait yaradılması əsas tələb kimi irəli sürülür.

Vüsal Qasımlı dünyanın ekoloji sahədə fəaliyyət göstərən beyin mərkəzlərinin diqqətinə çatdırır ki, Azərbaycanın Ağdərə şəhəri ətrafında yerləşən “Qızılbulaq” qızıl yatağı Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə bağlanılan sazişə uyğun olaraq “R.V.Investment” şirkəti tərəfindən istismar olunmalıdır. Lakin yataq Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazidə olduğu üçün tərəflər arasında imzalanan saziş icra edilmir. Əvəzində istismarla məşğul olan “Base Metals” şirkətinin təkcə 2009-2017-ci illərdə “Qızılbulaq” yatağının istismarı nəticəsində 178 milyon dollar qazandığı sübuta yetirilib. Qarabağ ərazisində 2010-cu ildən fəaliyyətə başlayan və ilkin hesablamalara görə, illik gəliri 8 milyon ABŞ dolları təşkil edən şirkət “Qızılbulaq” yatağından hər ay 12 min

10.61764/lasr.1.2023.226-236

ton filiz çıxarıb, saflaşdırma kombinatında ilkin emaldan sonra Ermənistana aparıb və orada təkrar emal olunduqdan sonra dünya bazarına çıxarıb [12].

Bir-birindən 15 kilometr uzaqlıqda yerləşən "Qızılbulaq" və "Dəmirli" yataqlarının, Vətən müharibəsindən sonra, istismarı dayandırılıb. Lakin bədnam rusiyalı milyarder Ruben Vardanyanın, Rusiyaya qarşı tətbiq edilən beynəlxalq sanksiyalardan qaçıb Qarabağa gəlməsi və Qarabağ separatçılarının rəhbərliyinə - qondarma "dövlət naziri" postuna gətirilməsindən sonra yataqlarda yenidən qanunsuz fəaliyyətə başlanılıb. Son dövrlər isə, "Azersky" peyklərinin təsvirləri vasitəsilə "Dəmirli" mədən yatağının 740 hektar ərazisində ermənilər tərəfindən qanunsuz olaraq geoloji kəşfiyyat, qazıntı-hasilat işlərinin və yeni infrastruktur elementlərinin tikintisinin aparıldığı müəyyənləşdirilib. Nəticədə ətraf mühitə böyük ziyan dəyib, çaylar və yeraltı sular ağır metallarla çirkləndirilib. Uzun illər bu ərazilərdə ekosidlər törədilib, yanğınlar təşkil edilib, su hövzələri kimyəvi çirklənməyə məruz qalıb, Azərbaycan dövlətinə məxsus sərvətlər qanunsuz istismar olunub.

İİTKM-in icraçı direktoru Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi ərazidə Azərbaycan Respublikasının daxili qanunvericiliyinin pozulduğunu, beynəlxalq konvensiyaların tələblərinə əməl olunmadığını diqqətə çatdırır. Bildirir ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə görə "Qızılbulaq" və "Dəmirli" mədənlərində qanunsuz sahibkarlıqla məşğul olaraq qanuni sahibi Azərbaycan dövləti olan sərvətlərimizi talan edənləri 7 ilədək həbs cəzası gözləyir və onlar Azərbaycan Respublikasına dəymiş ziyanın 4 mislini dövlət büdcəsinə ödəməlidirlər.

Vüsal Qasımlı bildirir ki, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi ərazilərdə qeyri-qanuni fəaliyyətlər və törədilən ekoloji terror beynəlxalq konvensiyalara da ziddir. Xüsusilə, hərbi konfliktlər zamanı mədəni dəyərlərin qorunması haqqında Haaqa Konvensiyası, 1907-ci ildə qəbul edilən IV Haaqa Qaydaları, 1949-cu ildə qəbul edilən IV Cenevrə Konvensiyası qanunsuz fəaliyyəti qəti şəkildə rədd edir. İşğal olunmuş Ərazilər üzrə Cenevrə Konvensiyası şirkətlərə uzun müddət işğal altında olan və faktiki statusu aydın olmayan ərazilərdə mədən hasilatı aparmağı qadağan edir. Beyin mərkəzlərinə ünvanlanan müraciətin mətnində qeyd olunub ki, ekoloji problemlər,ətraf mühitin və su hövzələrinin çirkləndirilməsi BMT-nin qəbul etdiyi Davamlı İnkişaf Konsepsiyası və Dayanıqlı İnkişaf Məqsədləri ilə ziddiyət təşkil edir. O cümlədən, yataqların qanunsuz istismarı, ətraf mühitə zərər vurulması, su hövzələrinin çirkləndirilməsi və bu ərazilərdə qanuni sahib olan dövlətin - vətəndaşların monitorinqinə şərait yaradılmaması BMT tərəfindən qəbul edilən "Transsərhəd kontekstdə ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında Konvensiya"ya (Espo Konvensiyası), "BMT-nin Avropa İqtisadi Komissiyasının Ətraf mühit ilə bağlı məlumatın əldə edilməsi, ictimaiyyətin qərar qəbul edilməsində iştirakı və ədalət məhkəməsinin açıq keçirilməsi haqqında Konvensiyası"na (Orxus Konvensiyası) tamamilə ziddir [12].

Müraciətdə həmçinin qeyd olunur ki, azərbaycanlı ekoaktivistlərin ekoloji terrora etirazı ilə bağlı saxta xəbərlər Ermənistan tərəfindən dünya mediasına yanlış informasiya kimi ötürülür. Etiraz məktubu ABŞ, Türkiyə, Avropa İttifaqı, Yaponiya, Çin, Rusiya və başqa ölkələr də olmaqla 100-dən artıq beyin mərkəzinə ünvanlanıb [2, s.2].

Ümumilikdə, Qarabağ və Şərqi Zəngəzurun Ermənistan tərəfindən istismarı nəticəsində 16 milyard manatdan çox ziyan dəymişdir. Bu rəqəm Azərbaycan Respublikası Baş Prokurorluğu və Xarici İşlər Nazirliyinin birgə açıqlamasında qeyd olunmuşdur. Hesablamalar 1988-ci ildən başlayaraq 2020-ci ilə qədər davam edən dövrü əhatə edir. Baş Prokurorluq və Xarici İşlər Nazirliyinin birgə açıqlamasında qeyd olunan bu məbləğ daha çox ekoloji terror və təbii sərvətlərin qeyri-qanuni istismarı ilə bağlı yaranan zərərin məbləğidir

İndiyədək Ermənistan tərəfi faydalı qazıntı yataqlarımızı arxayın şəklində istismar edərək bunun qanunsuz olduğuna dair Azərbaycanın xəbərdarlıqlarına məhəl qoymurdu. Hal-hazırda həmin yataqları istismar edən əcnəbi məzrkəzli şirkətlər külli miqdarda zərərlə üzləşmişlər. Azərbaycan hökuməti hüquqi addım olaraq həmin şirkətlərə qarşı iqtisadi və ekoloji ziyana görə beynəlxalq məhkəmələrdə təzminat üçün iddia qaldırmaq üçün əsasa malikdir. Belə ki, həmin yataqların işğaldan əvvəl də, sonrakı dövrlərdə də vəziyyətinə, o cümlədən orada aparılan işlərə dair tutarlı materiallar hökumətin əlindədir. Yataqların istismarından əldə edilən gəlir Ermənistan hökumətinin cibinə getdiyi üçün təbii ki, məhz onlar da təzminatı ödəməli olacaq [13, s.3].

**Nəticə**

Qarabağ işğaldan azad edildikdən sonra yeni reallıqlar yarandı. 44-gün davam edən Vətən müharibəsində məğlub olan Ermənistanın və onu dəstəkləyən beynəlxalq şirkətlər Qarabağda böyük gəlir mənbələrini itirdilər. Qeyri-qanuni sahibkarlıq fəaliyyəti ilə məşğul olanlar ittiham olunaraq Azərbaycan Respublikası Baş Prokurorluğu tərəfindən beynəlxalq axtarışa verilib. Hal-hazırda isə beynəlxalq ekspertlərin iştirakı ilə dəymiş zərərin qiymətləndirilməsi prosesi davam edir. Gənc fəallarımız artıq 3 aydan artıq bir müddətdir ki, qanunsuz istismar olunan ərazilərə Azərbaycan tərəfinin nümayəndə heyətinin baxış keçirməyə buraxılması üçün dinc aksiyanı davam etdirirlər. Mövqeyimiz isə ilk növbədə ziyanın könüllü olaraq ödənilməsidir, əks təqdirdə məsləyə beynəlxalq məhkəmələrdə hüquqi qiymət veriləcəkdir.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI


1. Münaqişənin ekoloji zərərləri. N.Əhmədov (2021)
2. "Yerin təkinin geoloji öyrənilməsinə və mineral xammal bazasından səmərəli istifadəyə dair 2020-2024-cü illər üçün Dövlət Proqramı"
3. Azərbaycan Respublikasının Konstitusiyası
4. "Təbiəti mühafizə və təbiətdən istifadə haqqında" Azərbaycan Respublikasının qanunu
5. "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu;
6. "Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikasının Qanunu
7. Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü, E.Süleymanov, V.Süleymanov, Bakı, 2012
8. Illegal Economic And Other Activities In The Occupied Territories Of Azerbaijan. Report by the Ministry of Foreign Affairs of the Republic of Azerbaijan
9. Illegal activities in the territories of Azerbaijan under Armenia's occupation: evidence from satellite imagery 2019
10. E.Rasimzadə, "Ermənistan Tərəfindən İşğal Olunmuş Azərbaycan Respublikası Ərazilərinin Təbii Resurslarına Vurulan Zərərlərin İqtisadi-Coğrafi Qiymətləndirilməsi", 2018. s.76
11. https://konkret.az/isgal-olunmus-erazilerimizdeki-tebii-ehtiyyatlar-siyahi-fotolar/
12. https://banco.az/az/news/vusal-qasimli-ekoloji-terrorla-bagli-dunya-beyin-merkezlerine-muraciet-edib
13. https://fed.az/az/energetika/ekspert-qarabagin-talan-olunmus-servetlerine-gore-tezminat-verilmelidir-90479

10.61764/lasr.1.2023.226-236

**Шахин Мамедов**
*Научный руководитель:* **Сохраб Исаев**

## ВОПРОСЫ ВОЗМЕЩЕНИЯ УЩЕРБА, ПРИЧИНЕННОГО В РЕЗУЛЬТАТЕ НЕЗАКОННОЙ ЭКСПЛУАТАЦИИ ПРИРОДНЫХ РЕСУРСОВ
### (на примере военной агрессии Армении против Азербайджанской Республики)

***РЕЗЮМЕ***

Вторая Карабахская война, закончившаяся победой славной азербайджанской армии, не только привела к освобождению оккупированных территорий, но и заложила основу для разоблачения разрушений, совершенных армянскими захватчиками. Выявление разрушений, причиненных враждебным противником, означает выявление и изучение ущерба, нанесенного инфраструктуре страны, природе и ресурсам в этих районах. В этой статье говорится о части ущерба, нанесенного экономике Карабаха. Статья начинается с предоставления начальных теоретических знаний о природных ресурсах, на следующем этапе рассматриваются вопросы, решаемые в азербайджанском законодательстве о природных ресурсах, подход к этим вопросам в международной практике, текущая ситуация с оценкой ущерба и шаги, которые необходимо предпринять. могут быть приняты на юридическом уровне обсуждаются.

***Цель*** – Вопрос об ущербе, причиненном незаконной эксплуатацией природных ресурсов Карабаха, его оценке и оплате на международно-правовом уровне является спорным.

***Методология*** – в статье использованы методы экономического анализа, экономический анализ, сравнительный анализ, методы синтеза.

***Результаты исследования*** – В результате незаконной эксплуатации, осуществляемой на освобожденных территориях, можно отметить, что, несмотря на то, что прошло совсем немного времени, как местные специалисты, так и иностранные экспертные группы продолжают свои усилия по углубленному анализу данного вопроса. Проделанная работа всегда находится под пристальным вниманием правительства и тема остается актуальной.

***Ключевые слова:*** Вторая Карабахская война, армянские оккупанты, природные ресурсы, ущерб, приоритет

**Shahin Mammadov**
*Scientific supervisor:* **Sohrab Isaev**

## ISSUES OF COMPENSATION FOR DAMAGE CAUSED AS A RESULT OF ILLEGAL EXPLOITATION OF NATURAL RESOURCES
### (in example, Armenia's military aggression against the Republic of Azerbaijan)

***ABSTRACT***

The Second Karabakh War, which ended with the victory of the glorious Azerbaijani army, not only resulted in the liberation of the occupied territories, but also laid the groundwork for the revelation of the destruction committed by the Armenian invaders. Revealing the destruction caused by the hostile enemy means identifying and studying the damage caused to the country's infrastructure, nature, and resources in those areas. This article talks about part of the damage to the economy of Karabakh. The article begins with the provision of initial theoretical knowledge about natural resources, in the next stage, the issues addressed in the Azerbaijani legislation on natural resources, the approach to these issues in international practice, the current situation regarding damage assessment, and the steps that can be taken at the legal level are discussed.

10.61764/lasr.1.2023.226-236

***Purpose*** – The issue of damage caused by the illegal exploitation of natural resources in Karabakh and its assessment and payment at the international legal level is the issue.

***Methodology*** – economic analysis methods, economic analysis, comparative analysis, and synthesis methods were used in the article.

***Findings*** – As a result of the illegal exploitation carried out in the liberated territories, it can be noted that despite the fact that only a short time has passed, both local experts and foreign expert groups continue their efforts to analyze this issue in depth. The work done is always under the government's attention and the topic remains relevant.

***Keywords:*** Second Karabakh War, armenian invaders, natural resources, damage, priority